# “Ağ qızıl”ın ağ günləri başlayıb

Azərbaycanda aqrar islahatlar həyata keçirildikdən sonra ilk növbədə ərzaq təyinatlı məhsulların istehsalına fikir verilməyə başlandı. Yəni taxıl, kartof, bostan bitkiləri, qarğıdalı, tərəvəz, meyvə, həmçinin, heyvandarlıq məhsulları istehsalı önə çəkildi. Qeyri-ərzaq məhsulları (pambıq, tütün, barama və s.) yavaş-yavaş gözdən düşdü, unuduldu. Gözdən iraq olan könüldən də iraq olar deyiblər. Ümumiyyətlə, son 10-15 ildə pambıqçılıq ölkədə ən geri qalmış, unudulmuş kənd təsərrüfatı sahələrindən birinə çevrildi.

İndi də onun acı nəticələrini dadırıq. Ancaq gec də olsa, nəhayət ki, hökumət pambıqçılığın inkişafına fikir verməyə başlayıb. Necə deyərlər, ziyanın yarısından qayıtmaq da xeyirdir. Bu ilin əvvəlindən etibarən dövlət başçısı keçirilən müşavirələrdə, Nazirlər Kabineti iclaslarında, digər sahələrlə yanaşı, pambıqçılığın inkişafını da prioritet sahə kimi qarşıya qoyur.

Prezident İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2016-cı ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasda dövlət başçısı qarşıya vəzifə qoyub:

**“Keçən il 18 min hektardan cəmi 30 min ton pambıq yığılıb. Cəmi bir neçə ay ərzində görülmüş tədbirlər nəticəsində biz 52 min hektarda pambıq əkinini təmin etmişik və bu il 100 min ton məhsul gözlənilir. Gələn il 120 min hektar əkilməlidir. Yeni texnologiyalar, yeni suvarma sistemləri tətbiq olunacaq. Ona görə, hektardan məhsuldarlıq indiki 20 sentnerdən minimum 30 sentnerə qalxmalıdır. Belə olan halda, gələn il minimum 300 min ton pambıq yığılmalıdır. Bu, ölkəmizə həm valyuta gətirəcək, həm məşğulluğu təmin edəcək”.**

İclasda cənab İlham Əliyev daha sonra deyib:

**“Mən bir daha demək istəyirəm ki, bu sahə prioritet sahə kimi qalacaq və burada ən qabaqcıl texnologiyalar tətbiq edilməlidir”.**

**Pambıqçılıqla bağlı çox ciddi addımlar atılıb. Biz pambıqçılığı bərpa edirik, dirildirik və pambıqçılığın şöhrətini özünə qaytarırıq. Əfsuslar olsun ki, son illər ərzində bu sahə də tənəzzülə uğrayıb.**

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Ölkəmizdə pambıqçılığın inkişafı əsasən özəl sahə ilə bağlıdır. Çünki torpaq özəlləşməyə getdiyindən bütün əkin sahələri fermerlərə, şirkətlərə məxsusdur. Pambıqçılıqla məşğul olan cəmi bir neçə şirkət içərisində nisbətən böyüyü, təkmilləşəni, maddi-texniki bazaya malik olması ilə seçiləni MKT-dir. Bu şirkət Azərbaycanda pambıqçılığın inkişafı üçün az iş görməmişdir və bu sahədə yaxşı iş təcrübələrinə malikdir.

- **“MKT İstehsalat Kommersiya” MMC** Azərbaycan iqtisadiyyatının qeyri-neft sektorunda 18 ildən çoxdur fəaliyyət göstərir - deyə, şirkətin baş direktor vəzifəsini icra edən **Eldəniz Quliyev** bizimlə söhbətə başlayır. Cəmiyyətin fəaliyyətinin əsas istiqaməti ölkənin pambıqçılıq rayonlarında öz istifadəsində olan torpaq sahələrində, habelə fermerlərlə bağlanan müqavilələr əsasında xam pambığın istehsalı, tədarükü və daha sonra həmin xam pambığın sahib olduğu pambıqtəmizləmə müəssisələrində emalından ibarətdir. Eyni zamanda Cəmiyyət öz istifadəsində olan torpaq sahələrində buğda və arpa da istehsal edir.



1998-ci ildən Azərbaycanda Liverpul Pambıq Assosiasiyası tərəfindən təsdiq olunmuş yeni pambıq mahlıcı etalonları tətbiq olunub. “MKT İstehsalat Kommersiya” MMC 2003-cü ildən bu təşkilatın assosiativ üzvüdür.

Cəmiyyətin Bakı şəhərində pambıqəyirici fabriki mövcuddur. Fabrik İsveçrənin RİETER şirkətinin müasir texnologiyası ilə təchiz olunmuşdur və ildə 7 min ton iplik istehsal etmək gücünə malikdir. Həmçinin, Cəmiyyətin icarəsində olan və Gəncə şəhərində yerləşən, ildə 3 min ton iplik istehsal edən “Gəncə Pambıq Əyirici” MMC pambıqəyirici fabriki də iplik istehsalı sahəsində çoxillik təcrübəsi var.

İstehsal olunan pambıq ipliyi “open end” texnologiyası ilə hazırlanır, Azərbaycan, Rusiya və digər MDB ölkələri bazarlarında böyük tələbata malikdir.

Cəmiyyət 2006-cı ildə Şirvan şəhərində Türkiyə istehsalı olan yeni avadanlıqlarla təchiz edilmiş, yağ-piy kombinatını qurmuşdur. Bu zavod texniki çiyiddən pambıq yağı və jmıx istehsal edir, müəssisədə linter xətti və təmizlənmiş yağ istehsal edən xətt fəaliyyət göstərir.

Eldəniz müəllim deyir ki, bu gün “MKT İstehsalat Kommersiya” MMC öz beynəlxalq standartlara cavab verən məhsullarını: pambıq-mahlıcı, tullantılar, müxtəlif nömrəli pambıq ipliklərini, habelə linter, pambıq yağı və jmıxı tələbata uyğun daxili bazarlara, Türkiyə, İran, Rusiya və digər MDB ölkələrinə ixrac edir. Buğda və arpa isə daxili bazarda satılır.

2015-ci il mövsümündə fermerlərlə bağlanan müqavilələr əsasında əkilmiş sahə 5836,5 hektar təşkil edir. Cəmiyyətin öz istifadəsində olan torpaq sahələrində əkilmiş sahə isə 2587 hektardır.

2016-cı il mövsümündə fermerlərlə bağlanan müqavilələr əsasında əkilmiş sahə artırılaraq 26556 hektara çatıb. Cəmiyyətin öz istifadəsində olan torpaq sahələrində əkilmiş sahə isə 5177 hektardır.

Əlbəttə, şirkətin müəyyən problemləri də var və bu problemlərin heç də hamısı onun özündən asılı deyil. Hesab edirik ki, ölkədə yüngül sənaye, xüsusilə toxuculuq sənayesi inkişaf edərsə, pambıqçılıq şirkətlərinin fəaliyyəti üçün daha yaxşı meydan açılar.

**Nəriman CAVADOV,**
**“Respublika”.**